виправдування будь-яким порушення, будь-яких правил. Але об'єктивно кажучи це не що інше як приховане порушення правил, закону.

Тому відсіля слідує єдиний висновок: за будь-яке порушення правил соціуму обов'язково повинна наступати соціальна відповідальність, адекватна характеру скоєного порушення.


Література:

1. Бабайлов В.К. Предпринимательство: концепция новой парадигмы. *Проблеми і перспективи розвитку підприємництва: Збірник наукових праць харківського національного автомобільно-дорожнього університету*. 2013. №1(4). С. 9 – 13.

2. Бабайлов В.К., Шершенюк О.М. Конспект лекцій «Соціальна відповідальність» для студентів спеціальностей 051 «Економіка», 076 «Підприємництво, торгівля та біржова діяльність». Х.:ХНАДУ, 2022. 37 с.


## SAHIBKARLIQ FƏALIYYƏTINƏ DÖVLƏT DƏSTƏYININ IQTISADI MEXANIZMLƏRI


*Əliyeva Təranə Əsman qızı*
*Mingəçevir Dövlət Universiteti*


Sahıbkarlıq fəaliyyəti yeniliyə, yeni üsulların və müasir texnologiyaların istifadəsinə meyl etməsi, yüksək rəqabətqabiliyyətli və istehlakçı tələbatına tez uyğunlaşması ilə səciyyələnir. Sahıbkarlıq fəaliyyətinin inkişafı ilə əlaqədar yeni müəssisələrin yaradılması, yerli istehsalın artması ölkə iqtisadiyyatının əsaslarını möhkəmləndirir. Sahibkarlığın inkişafı dövlətin iqtisadi sabitliyinin əsas şərti hesab edildiyi üçün əlverişli biznes mühitinin yaradılması əsas vəzifələrdən biri hesab edilir.

Sahıbkarlıq fəaliyyətinə dövlət dəstəyi ölkə iqtisadiyyatının normal fəaliyyətini təmin edən zəruri şərtlərin yaradılmasıdır. Sahibkarlıq subyektlərinin fəaliyyətinə müsbət və mənfi şərtlər olduğu halda müdaxilə edilə bilər. Mənfi şərtlər dedikdə, bütövlükdə ölkə iqtisadiyyatına və sahibkarlıq fəaliyyətinə mənfi təsir göstərə bilən, sahibkarlıq fəaliyyətinin müxtəlif sahələrində yaranan mənfi təzahürlər başa düşülür. Bu halda, dövlətin rolu ondan ibarətdir ki, bu təzahürlərin, onların yaranması səbəblərinin vaxtlı-vaxtında müəyyən edib, onların aradan qaldırılması üçün müvafiq tədbirlərin tətbiqindən ibarətdir. Dövlətin sahibkarlıq subyektlərinin fəaliyyətinə müdaxiləsi milli təhlükəsizliyə təhlükə yarandıqda, cəmiyyətdə sosial gərginlik olduqda, istehsalın azalması, inflyasiya, işsizliyin səviyyəsinin yüksəlməsi, büdcə kəsirinin olması, dünya bazarında milli məhsulun rəqabət qabiliyyətinin olmaması və s. şərtlər olduqda mümkün ola bilər.

Müsbət şərtlər dedikdə isə, sahibkarlıq fəaliyyətinin müxtəlif sahələrində yaranan müsbət təzahürlər başa düşülür. Bu halda dövlətin rolu müsbət təzahürlərin müəyyən edilməsi və onların dəstəklənməsindən ötrü müvafiq tədbirlərin tətbiqindən ibarətdir.

Bütövlükdə iqtisadiyyatın, xüsusilə də sahıbkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin düzünə (inzibati) və dolayı (iqtisadi) metodları fərqləndirilir. Düzünə (inzibati) dövlət tənzimlənməsi metodlarına iqtisadi inkişafın strateji məqsədlərinin müəyyən edilməsi, müəyyən növ məhsulların dövlət sifarişləri və müqavilələri üzrə alınması, ayri-ayrı məhsulların istehsalı və satışı üzrə hüquqi və inzibati məhdudiyyətlər və qadağaların müəyyən edilməsi, məhsul və texnologiyaların keyfiyyətinə və sertifikatlaşdırılmasına olan normativ tələblər və s. aid edilir. İqtisadi proseslərin dolayı dövlət tənzimlənməsi metodlarına isə vergitutma, vergi güzəştləri sistemi, kredit güzəştləri, kredit faizləri və s. aid edilir.

Deməli, sahibkarliğa dövlət dəstəyinin maliyyə, vergi, kredit kimi iqtisadi mexanizmləri mövcuddur. Dövlətin iqtisadiyyata təsirinin ən əhəmiyyətli vasitələrindən biri vergilər olduğu üçün, hər bir sahibkarın vergilər haqqında qanunvericiliyi bilməsi vacib şərtdir. Vergilər fiskal və tənzimləyici funksiyanı yerinə yetirirlər. Fiskal funksiya sahibkarlarin gəlirlərindən dövlət büdcəsinə ayırmaları nəzərdə tutur. Tənzimləyici funksiya vergi mexanizmləri vasitəsilə dövlətin qarşıya qoyduğu müəyyən məqsədlərə nail olunmasına xidmət edir. Tənzimləyici funksiya o deməkdir ki, yenidən bölüşdürmə prosesinin fəal iştirakçılarından biri olmaqla vergilər, geniş təkrar istehsal prosesinə ciddi təsir göstərir, daha doğrusu, kapital yığımını gücləndirir və ya zəiflədir, ödəniş qabiliyyətli tələbi artırır və ya azaldır.

Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi mexanizmində sahibkarlıq fəaliyyətinin və iqtisadiyyatın dövlət tənzimlənməsinin vasitələrindən biri kimi dövlət nəzarəti mühüm yer tutur. Üç tip nəzarət mövcuddur: a) məhkəmə, b) prokuror, c) inzibati nəzarət. Inzibati nəzarət – dövlət idarəetməsinin bir sıra orqanlarının hüquq-mühafizəedici fəaliyyətinin xüsusi növüdür. Beləliklə, sahibkarlıq fəaliyyəti sahəsində dövlət nəzarəti dedikdə, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, o cümlədən onun idarə edilməsi zamanı normativ-hüquqi aktların tələblərinə dövlət hakimiyyəti orqanları və sahibkarlıq fəaliyyəti subyektləri tərəfindən əməl olunmasına nəzarət və müşahidə sistemidir.

Tətbiqi sahəsindən asılı olaraq dövlət nəzarətinin büdcə nəzarəti, valyuta nəzarəti, dövlət metroloji nəzarət, gömrük nəzarəti, maliyyə nəzarəti, nəqliyyat nəzarəti, vergi nəzarəti və s. kimi növləri vardır. Nəzarətin mərhələsindən və yoxlamanın məqsədlərindən asılı olaraq ilkin, cari, sonrakı nəzarət növləri fərqləndirilir. İlkin nəzarət-sahibkarlıq fəaliyyətinin parametr-lərinə əməl edilməsinin profilaktikası və xəbərdar edilməsi məqsədini güdür. Cari nəzarət-həqiqətən həyata keçirilən sahibkarlıq fəaliyyətinin qiymətlən-dirilməsidir. Sonrakı nəzarət-sahibkarlıq fəaliyyəti sahəsində dövlət orqanlarının bu və ya digər qərarlarının icrasının yoxlanılmasını nəzərdə tutur.

Sahibkarlıq fəaliyyəti subyektlərinə dövlət nəzarətini həyata keçirməklə yanaşı dövlət onların hüquqlarının və qanuni maraqlarının müdafiəsini təmin edilməsi ilə bağlı tədbirlər görür. Dövlət nəzarəti haqqında danışarkən, onun növlərindən biri olan vergi nəzarətinin xüsusiyyətləri haqqında danışmaq məqsədə müvafiq olardı. Belə ki, vergi nəzarəti dedikdə, vergi orqanları vergilərin tam və vaxtında yığılmasının təmin etmək məqsədi ilə vergi nəzarətinin həyata keçirilməsi başa düşülür. Vergi nəzarətinin formaları vergi ödəyicilərinin və vergi tutma obyektlərinin uçotu, uçot və

hesabat məlumatlarını yoxlama, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparma və gəlir əldə etmək üçün istifadə olunan binalara baxış keçirmə aid edilir.

Ədəbiyyat:


1. Əhmədov M., Hüseyn A., İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı, 2011.
2. İbrahimov İ.H., İbrahimov E.R. "Sahibkarlıq fəaliyyətinin iqtisadi, hüquqi mexanizmi". Bakı, 2004.
3. Manafov Q.N.. Sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi aspektləri, Bakı, 2000.
4. Niftullayev V. Sahibkarlığın əsasları. Bakı, 2002.


## AZƏRBAYCANDA BIZNES MÜHITININ YAXŞILAŞDIRILMASI ISTIQAMƏTINDƏ HƏYATA KEÇIRILƏN ISLAHATLAR


*Hüseynova Emiliya Yəhya qızı, İqtisad elmləri namizədi, dosent*
*Şükürov Xəyal Rasim oğlu*
*Mingəçevir Dövlət Universitet, Azərbaycan*


Azərbaycanda sahibkarlığın davamlı inkişafı məqsədilə hüquqi tənzimləmə, qanunvericilik bazasının təkmilləşdirilməsi yolu ilə biznes mühitinin yaxşılaşdırılması əsas hədəflərdən biridir. Ölkəmizdə son illər həyata keçirilən bu iqtisadi islahatlar biznes mühitinin daha da yaxşılaşdırılmasını, təşviq siyasətinin davam etdirilməsini və institusional islahatları əhatə edir.

Sahibkarlığın inkişafı, əlverişli biznes mühitin yaradılması məqsədilə əsaslı şəkildə islahatların aparılması xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən iqtisadi inkişaf strategiyasının tələblərindən irəli gəlir və onun mərkəzində durur. Ölkə iqtisadiyyatının davamlı və tarazlı inkişafının təmin edilməsi, regionların inkişafının sürətləndirilməsi ölkəmizin sosial-iqtisadi inkişafının hazırkı mərhələsinin prioritet vəzifələrindəndir və qəbul edilmiş məqsədli dövlət proqramları çərçivəsində uğurla yerinə yetirilməkdədir.

Son illər Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən iqtisadi islahatlar, sahibkarlığın dövlət tənzimlənməsi və dəstəklənməsi sahəsində qəbul edilmiş qərarlar, qanunlar, dövlət proqramları ölkədə azad rəqabətə əsaslanan sahibkarlığın inkişafı məqsədlərinə xidmət edir. Burada başlıca məqsəd biznes mühitinin yaxşılaşdırılması və sahibkarlığın inkişafıdır.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması üzrə aparılan iqtisadi islahatlar ölkədə sahibkarlığın inkişafına təkan vermişdir. Xüsusən də dövlət-sahibkar münasibətlərinin, investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun stimullaşdırılması, o cümlədən özəl sektora təşviq mexanizmlərinin tətbiqi, aqrar sektora dövlət qayğısının artırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi bu baxımdan əhəmiyyətlidir. Bunların nəticəsidir ki, ölkədə, xüsusən də qeyri-neft sektorunda özəl sektorun inkişafı meyilləri müşahidə olunur.